| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Energetika Nazirliyi |
| **QƏBUL EDİLDİYİ TARİX** | 27.09.2016 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 03 |
| **ADI** | Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament”də və “Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament”də dəyişikliklər edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 07.10.2016 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 170.140.020 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 15201609270003 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 06.10.2016 |

AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 27.09.2016 |
| Qeydiyyat nömrəsi | 03 |
| Adı | Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də və "Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 07.10.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 170.140.020 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609270003 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 06.10.2016 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.5-ci yarımbəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 1.3.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaz istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "116, 116-1 və 118-ci" sözləri "279, 280 və 282-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş "Enerji istismarı qaydalarının pozulmasına görə cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin dördüncü abzasında "116, 116-1 və 118-ci" sözləri "279, 280 və 282-ci" sözləri ilə əvəz edilsin.

3. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

4. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**energetika naziri** **Natiq Əliyev**